**Zaur USTAC**

# GÜLZAR

Bakı – 2018

Zaur USTAC

“GÜLZAR” EK

Bakı, “USTAC.AZ” nəşrləri, 2018, 44 səh.

Kod: EK-006 -04- MZM-14 -20-18

*Elektron Kitab Zaur Ustac yaradıcılığının “30” illik yubley tədbirləri çərçivəsində nəşr olunur. Bu kitab müəllifin ənənəvi qydada 2011– ci ildə nəşr olunmuş eyni adlı kitabının elektron variantıdır. Kitabda şairin 90-cı illərin əvvəllərində Ağdamda, Yusifcanlıda qələmə aldığı şeirlər yer almışdır. (Y-30-EK-06-ZU)*

İSBN: 978-9952-8298-9-1e

© Zaur USTAC, 2018.

# ON DÖRDÜNCÜ YAZI

## QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU

## (HESABAT)

Salam, dəyərli oxucum... Uca Yaradana şükürlər olsun ki, Bizə qarşı çox səxavətlidir və hər dəfə Sizinlə yeni görüşə gələndə bu şükrü-sənanı qeyd etməyi özümə borc bilirəm. Hər yaşadığımız an üçün şükürlər olsun... Min şükür... Mətləbə keçməzdən əvvəl onu qeyd edim ki, nə qədər çalışsam da yenə yazıma bir sözdən ibarət ad seçə bilmədim... Söz addan düşmüşkən, artıq ad öz-özlüyündə oxucuya söhbətin nədən gedəcəyi barədə ipucu verir. Necə deyərlər əldə qələm 30 – a gəlib çatdıq.

2018 – ci ilin Mayın 24 –də ilk yazımın rəsmi şəkildə mətbu orqanda işıq üzü görməsinin 30 ili tamam olur. 24 May 1988 – ci il "Əməyə məhəbbət" adlı məqaləm, Ağdamda nəşr olunan "Lenin yolu" (sonralar "Ağdam") qəzetinin 62-ci (7194) sayında, 4-cü səhifəsində dərc edilib. ("OTUZ İLDİR ƏLDƏ QƏLƏM" adlı kitabın üz qabığına çıxarılmış foto - cild "Ağdam" qəzetinin Zaur Ustacın şəxsi arxivində saxlanılan həmin bu nömrəsindən istifadə olunaraq hazırlanmışdır.) Və ilk qələm haqqımı deyim, mürəkkəb pulumu deyim - qonorar - aldığım vaxtdan 30 il keçir... Təfsilata keçmədən sadəcə onu qeyd etməyi özümə borc bilirəm ki, həqiqətən də çox keşməkeşli bir həyat yaşamaq qismət oldu Bizlərə...

Sözüsüzki, yaradıcılığımız həyatımızın inkası olduğundan – "qabda nə var çıxar üzə" (Z.U)- bu anlamda mən nəzmi deyil, məhz nəsri nəzərdə tuturam ... Yaşadıqlarımız yazdıqlarımıza çox təsir edir. Hətta, yəqin ki, yaşadıqlarımız yazdıqlarımızı yaradır... Yəni, belə uzun və keşməkeşli bir zamanın müqabilində Biz heç nə yazmamışıq... Adları qoyulmuş, içəriyi də məlum sayı 10 –dan artıq kitab – roman, povest və hekayələr – yazılacağı günü gözləyir... Və gözləyə-gözləyə zənginləşir, dərinləşir, vacibləşir... Yəqin elə buna görədir ki, kəlmələr kağız üzərinə köçməyə tələsmir, hələ bir az da qələmə naz edirlər... Nəsə, yazılmamışları qoyaq bir kənara, keçək yazılmışlara... 30 il əvvəl bir məktəbli məqaləsi ilə başlayan sərgüzəştlərim Uca Yaradanın izni ilə davam etməkdədir və inanıram ki, istədiklərimin hamısını yazıb Sizlərin ixtiyarına verməyə vaxtım olacaq. Bu günə qədər yazdıqlarımdan işıq üzü görən kitablarım aşağıdakılardır:

"GÜNAYDIN" ("AĞÇİÇƏYİM") Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR.: ZU — GAC

"İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN" Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — İSOHM

"GÜLZAR" Bakı - 2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. )

"MUM KİMİ YUMŞALANDA" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: .ZU — MKY

"MƏHDUD HƏYATIN MƏCHUL DÜŞÜNCƏLƏRİ" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR:ZU — MHMD

"ŞEHÇİÇƏYİM" Bakı -2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"BALÇİÇƏYİM" Bakı - 2012. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. )

"BƏRZƏXDƏ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub)

"NİŞANGAH" Bakı - 2016. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.)

"ORİYENTİR ULDUZU" Bkı -2011. (Bu günə qədər beş dəfə nəşr olunub və elektron variantı var.)

"GÜLÜNÜN ŞEİRLƏRİ" Bakı - 2011. (Bu günə qədər üç dəfə nəşr olunub və elektron variantı var.)

"SEVİN Kİ, SEVİLƏSİZ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"BAYATILAR" - زائـــور اوستاج " بایاتیلار" - Bakı -2014. (Bu günə qədər iki əlifba ilə üç dəfə nəşr olunub və elektron variantı var. Təbrizdə yayımlanıb.)

"QƏLBİMİN AÇIQCASI" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"USTADNAMƏ" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"USUBCAN ƏFSANƏSİ" (MƏQALƏLƏR) Bakı - 2017. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — USUB

"ÇƏHRAYI KİTAB" Bakı – 2017. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — CK

"OTUZ  İLDİR  ƏLDƏ  QƏLƏM"  Bakı – 2018.

(Bu günə qədər  bir  dəfə nəşr olunub və elektron variantı var.)

PDF: – ƏNƏNƏVİ  NƏŞR:ZU — OƏQ

YANDIRILMIŞ  (LƏĞV OLUNMUŞ) KİTABLAR:

"93 – ün yayı və ya bir qaşıq qatıq",  Roman,  Bakı – 2011. (Bərpa olunacaq.)

"2016", Povest,  Bakı – 2011.  (Bərpa olunacaq.)

Yuxarıda  sadalanan  müəllifi olduğum kitablardan əlavə, dostların məsləhət bilib daxil etdikləri bir-neçə antologiya, toplularda da yer almışam ki, onlardan Mənə məlum olanları bunlardır:

“ZİRVƏ”  antologiyası.  Bakı – 2017. (Sona xanıma və Vüsal bəyə təşəkkürlər.)

“RUHUMUZUN TURAN ƏTRİ” “Dədə Qorqud”  kitabxanası seriyasından.  Bakı – 2017. (Balayar müəllimə, Sabir müəllimə, Mehman müəllimə təşəkkürlər.)

“MƏQAM”  Toplu.  Bakı – 2017. (Hacıxanım  Aidaya təşəkkürlər.) *PDF: – ƏNƏNƏVİ NƏŞR:HXA – M*

ASKEF-in  yayımladığı “KARABAĞD’AN, KERKÜK’DEN ÇANAKKALE’YE”  (şiir  seçkisi)   antologiyası.  Türkiye–

2017. (Günel xanıma, Sayman Aruz bəyə, Sona xanıma və Savaş Ünal bəyə təşəkkürlər.)

Bu günə qədər ənənəvi qaydada nəşr olunmuş bütün kitablarımın elektron variantları var. Hamı üçün tam pulsuz və təhlükəsiz əlçatanlığı təmin etmək məqsədi ilə yaradıcılığın 30 iliyi yubley tədbirləri çərçivəsində təkrar EK nəsrlər olacaq.

Son illər müntəzəm olaraq, http://yazarlar.az/ , http://ustac.az/ , http://zaurustac.tr.gg/ saytlarında,

**"EV BAZARI" qəzeti (e-qəzet)** yomoristik e-qəzetdə, "MAKLER-VİP" jurnalı (e-jurnal) satirik e-jurnalda, "MARALLAR" satirik bloqda yazılarımı yayımlayıram. Bunlardan əlavə istər http://www.tezadlar.az/ saytı olsun, istərsə də ənənəvi qaydada "TƏZADLAR" qəzeti Bizim üçün Ağdamın bir parçasıdır, "AĞDAM" qədər doğmadır.

Onu qeyd etmək istəyirəm ki, istər ənənəvi qaydada qəzet və jurnallarda, istərsə də elektron variantda bütün təkliflərə isti yanaşıram. Heç bir müraciəti cavabsız qoymuram. Eyni zamanda özüm də vacib bildiyim mövzularda yazılarım olanda və şeirlərimi hər iki qayda ilə mətbu orqanlara göndərirəm və yayımlanıram. Əlbətdə, vacib bildiyim mövzularda....

"YARADANLA BAŞ-BAŞA" kitabına daxil olan "QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU" (on dördüncü yazı) adlı, hesabat xarakterli bu məqalə "OTUZ İLDİR ƏLDƏ QƏLƏM" kitabında və yubley tədbirləri çərçivəsində Elektron Kitab formatında nəşr olunacaq bütün kitablarda yer alacaq. Ona görə məhz bu yazıda bir məlumatı da açıqlamaq istəyirəm.

Çox düşündüm ki, bu yazılardan, kitablardan başqa nə edə bilərəm... Bilirsiz ki, 2007 – ci ildən fəaliyyət göstərən **YAZARLAR.AZ** - Yazarlar jurnalının yaranma səbəbi, məqsədi, uşaq və gənclərə dəstək olmaq, ümumiyyətlə yaşından asılı olmayaraq yayımlanmaq problemi olan hər kəsə yardım etmək olub. Odur ki, yenə həmin ampuladan çıxış edərək, yaradıcılığın 30 illik yubleyi münasibəti ilə "USTAC" Milli Mükafatını təsis etdim. Mükafat diplomdan, nağd puldan və laureatın **YAZARLAR.AZ**–da yayımlanmış yazılarından ibarət, "Yazarlar" jurnalının xüsusi buraxılışı şəklində, 100 ədəd tirajla – pulsuz, kitabının nəşr olunmasından ibarətdir. Pul mükafatının məbləği bütün dövrlərdə stabil və inflyasiyaya davamlı olması üçün təqdim olunacağı ildə qüvvədə olan Azərbaycan Respublikası Müharibə Veteranın bir aylıq tam müavinəti həcmində nəzərdə tutulur. Pul mükafatı bir dəfə, tam həcimdə ödənilir və qanunamüvafiq olaraq bəxşiş -

bağışlama, hədiyyə etmə əsasında olduğuna görə vergidən azaddır.

Mükafat ildə bir dəfə, yalnız bir nəfərə 28 May Respublika Günü ərəfəsində - əvvəl, sonuncu Bazar günü – 2019 – cu ildən başlayaraq təqdim olunacaq. Kitab isə növbəti ilin təltifinə qdər çap olunub, laureata təhvil veriləcək. Mükafat barədə ətraflı məlumat YAZARLAR.AZ da elan olunacaq.

Bu arada “AZAD QƏLƏM”, “HAQQIN SƏDASI”, “ƏDƏBİYYAT” , “TƏZADLAR” qəzetlərinin, “YURD”, “ULDUZ”, “AZƏRBAYCAN”, “KİRPİ”, “MOLLA NƏSRƏDDİN XXI ƏSRDƏ”, jurnallarının, eləcə də

http://azpress.az/ , http://senet.az/ , http://zaman24.net/

http://www.yazar.in/ , http://take.az/ , http://siirvideo.com/
https://10yazar.wordpress.com/ , https://yazyarat.com/ ,

http://www.tehsilproblemleri.com/, http://ayb.az/

http://azeri.press/ , http://www.tezadlar.az/ ,

saytlarının bütün işçi heyyətlərinə və rəhbərbərlərinə, ölkəmizdə elektron kitabçılığın və kitabxanaçılığın əsasını qoymuş, günümüzdə olduqca zəngin, böyük həcmli e-kitab bazasına malik http://www.kitabxana.net/ saytının qurucusu, bir çox vacib ictimai işlərdə daim öndə fəallığı ilə seçilən, gənclərə həmişə dəstək olan Aydın Xan müəllimə xüsusi təşəkkürlər... Var olasız, Dostlar və əlbətdə, Bizim

tanımadığımız digər Qəhrəmanlar ... Kim cəhaləti ortadan qaldırmaq üçün bir kəlmə deyirsə, yazırsa çox xoşbəxt adamdır... Bu əməlin qəlbə verdiyi fərahlıq hissini ikinci bir iş bəxş edə bilməz.... Uğurlarımız bol olsun... Amin... (Amen...)

Düzü, bilmirəm nəsə unutdum ya yox... Ancaq, yazımı yekunlaşdırmaq istəyirəm.

Sağ olun! Var olun! Hamınıza xoş və əyləncəli günlər arzu edirəm! Arada kitab oxumağı da unutmayın!!!! “Mütailə orqanizmin kompleks müalicəsi, sağlam həyat deməkdir....” (Z.U)

02.04.2018. Bakı.

Müəllif: Zaur Ustac ,
© Zaur USTAC,2018. Bakı.

GÖRÜŞ

Görüşmürdük neçə vaxdır, sevgilim,
Günahkarı nə sən idin, nə də mən.
Bu sözlərin yeri deyil, nə lazım?
Bu dəfə də görüşdük, təsadüfən.

Səni gördüm, inanmadım gözümə,
İlahi, xoşbəxt yarandım mən də,
Əl-ayağım baxardımı sözümə?
Az qaldım, yıxılam durduğum yerdə.

Gözəllikdə birə min dəyişmisən,
Gözəl idin, indi göyçək olmusan,
Əzəlki tək əqli başdan alırsan,
Qönçə idin, indi çiçək olmusan!

Gözəllikdə birə min dəyişsən də,
Xasiyyətdə elə, həmən qalıbsan.
Məni görcək tez itirdin özünü,
Əzəlki tək yenə də utanırsan.

Baş açmıram, bu xasiyyət de, nədir?
Naz edirsən, yoxsa, sənə peşədir?
Bu, ayrılıq mənə əzab verirdi,
Bu, görüş de, səni sevindirmədi?

Bu, görüşü mən anlaya bilmirəm,
Nə üçün yolumdan mən geri döndüm?
Nə isə olacaq, sanki, bilirdim,
Geri döndüm, yolumda səni gördüm...

Xoş təsadüf, yoxsa tale yazısı?
Hər nə isə mənə sevinc bəxş etdi,
Həyatımın ən xoşbəxt bir anı tək,
Ömür kitabına bunu nəqş etdi.

Saf bir diləklə yazdım bu şeri,
Oxuma, bu şeri həzz almaq üçün.
Həsrətin vüsalın yaşadır, bu şer,
Oxu, o görüşü xatırlamaqçün...

22.11.1991. Yusifcanlı.

# NİYƏ ELƏ BAXIRSAN

Xoş baxışlı, şux duruşlu ceyranım,
Söylə mənə, niyə elə baxırsan?
İlk istəyim, son məqsədim, amalım,
Söylə mənə, niyə elə baxırsan?

Soruş nələr, oxunmayır gözündə,
Bu baxışda sevinc də var, kədər də,
Baxışında vüsal da var, həsrət də,
Söylə mənə, niyə elə baxırsan?
Baxışınla aşiqə zülm edirsən,
Bir baxışla, neçə min söz deyirsən,
Bu baxışla Ustacı incidirsən,
Söylə mənə, niyə elə baxırsan?

Yusifcanlı.

NƏYİMƏ LAZIM

Ay gözəlim nədir, yenə gülürsən?
Gözlərə əsirəm, bunu bilirsən,
Eşq badəsin doldururam, içirsən,
Boşalmış qədəhlər nəyimə lazım?

Eşq oduna yanan mənəm, yoxsa, sən?
Anlamıram, söylə necə sevirsən?
Yanan mənəm, yenə sən isinirsən,
Boş yerə kül olmaq nəyimə lazım?

Eşq oduna mən yanıram, sən də yan,
Zauru həmişə öz yanında san,
Aşiqi xatırla hər sat, hər an,
Mənasız gülməyin nəyimə lazım?

Yusifcanlı.

## ÜRƏK SÖZLƏRİ

Ürəyimdə sözüm çoxdur deməyə,
Elə, bu an qələm gəlir köməyə,
Başlayıram, qəlbimdəkin deməyə,
Bu anlarda kaş mənimlə olaydın...

Gözəl yarım, çox demişəm, gözəlsən,
Məncə, gözəl azdır, sən bir mələksən,
Mənim üçün sən göylərdən enmisən,
Göydən enən mələk, canım alaydın...

İlahi, nə qədər bəxtəvərəm mən,
Belə bir, gözəli, gördüyüm gündən,
Xoşbəxt həyat müjdəçisin sevəndən,
Ay qaranquş, bu yaxına qonaydın...

Göylər qızı, yer oğluna yaraşır,

Bil, çoxları eşqimizdən danışır,

Bunu bil ki, baxışlar da danışır,

Məlhəmli baxışla bir də baxaydın...

Yusifcanlı.

## ƏZAZİL   OLMA

İlahi yaratmış, bütün nemәti,
O, hər an verdiyini ala da bilər,
Açmış qızılgülə bel bağlama, sən
Açmış o, qızılgül sola da bilər.

Odur ki, sözümü deyirəm sənə,
O qara gözlərlə əzab vermə, gəl.
Onu da ilahi bəxş etmiş, sənə,
O qara gözlərlə öyünmə, gözəl...

Qıvrım tellərinlə, süzgün baxışla,
Bu qədər öyünmək, nəyə lazımdır?
Dümağ cəmalınla, qara xalınla,
Aşiqə zülm etmək, bil faydasızdır...

Gözəlim, bilginən bu gözəlliyi,
İlahi vermişdir, sənə borc kimi.
Bir zaman alacaq bu gözəlliyi,
Çoxdan alınmalı, alacaq kimi...

Deməli, öyünmək yersizdir gözəl,
Onsuz da aşiqə həsrətin bəsdir.
Qara qaş-gözünlə, incə belinlə,
Bunca öyünmək, bil ki, əbəsdir.

Düzdür, gözəllər nazsız olmayıb,
Dünyada can alan gözəl çox olub.
Açmış qızılgüllər solduğu kimi,
Onlar da bir zaman eləcə, solub...

Deyirəm, sözümün lap, kəsəsini,
İlahi yaratmiş səni gözəl tək,
O, hər an soldurar, gül cəmalını,
Amansız, rəhimsiz, güclü xəzan tək...

Yusifcanlı.

# GECƏLƏR

Eşqinin bəxşi mənə, ancaq olub buz gecələr,
İstirahət də itib, nəki günüz, həm gecələr.

Gözəl, hüsnünlə zülüm, gəl eyləmə aşiqə sən,
Onsuz da əzir məni, sənli, sənsiz qəm gecələr.

Hüsnün ki,  nəqş olunur, tamam-kamal gözlərimə
Hər şeyi ağ görürəm, gözlərim sərsəm gecələr.

Həmişə mənimləsən, çünki mənim canımdasan,
Ustaca han nə gərək, hər şeyi, həmdəm gecələr.

21.12.1991.  Yusifcanlı

## GÖZƏLİM

Necə idin, indi də elə varsan,
Bir söz de, lal olub, qalma, Gözəlim.
Bircə kəlmə söz deməyib, durursan,
Sükutunla canım alma, Gözəlim.

Hüsnünlə çoxunu yandırıb, yaxdın,
Mənə isə özgə nəzərlə baxdın,
De sözün nə idi? – dedin qorxdun,
Ürəyində söz saxlama, Gözəlim.

Neçə vaxdır səndən xəbər gözlərəm,
Yerişini, duruşunu izlərəm,
Gözləmişəm, mən yenə də gözlərəm,
Səbrimi əlimdən alma, Gözəlim...

Yusifcanlı.

ÜMİD

Gözəlim bilmirəm indi hardasan,
O, xoş günlərin qədrin bilmədin.
O, firavan günü hardan taparsan?
O, xoş günlərdə də bir yol gülmədin...

Baxırdın naməlum, süzgün baxışla,
Nə bilim, bir daha haçan baxarsan?
Ümidi üzməyək, bəlkə qovuşduq,
O zaman sözsüz ki, başqalaşarsan...

Bəlkə də heç zaman görüşmədik biz,
İki can bir qəlbdə yaşayamadıq.
O zaman, bəs necə olar halımız?
Dünyaya yenidən başlamalıyıq?

İlahi, gör nələr düşünürəm mən,
Bəlkə də dəliyəm, sərsəmləyirəm.
Çətin bu həsrətə tab etsin ürək,
Yerini nişan ver, ora gələrəm.

## TALE YAZISI

Harda qaldı xoş günlərim?
Yenə cananla olaydım.
Gündə min yol əhval tutub,
Dərdindən hali olaydım...

Bəs nə bilim, hara getdi?
Bəlkə, bu iş burda bitdi?
Diyən, ipin ucu itdi?
Kaş, onu yenə tapaydım...

Bu da tale yazısıdı,
Hərəyə bir cür yazıldı,
Mənə də bu yazılıbdı,
Kaş ki, onu oxuyaydım...

Mənimki belə gətirdi,
Yarımı gözdən itirdi,
Şükür, bu da bir qismətdi,
Qismətimə tez çataydım...

GECİKMİSƏN

O məsum baxışla az bax, ay Gözəl!
Sənə başqa gözlə baxa bilmərəm.
Qəlbim neçə vaxdır başqasındadır,
Canana xəyanət edə bilmərəm.

Demirəm, sən çirkin, ya da gözəlsən,
Doğrusu, bunu mən deyə bilmərəm,
Gözlərim baxsa da, Gözəl, hüsnünə,
Qeyri-adi nəsə duya bilmirəm.

Çünki bu gözlərin nuru başqadır.
Onun həssaslığın başqa can almış.
Mənim gözlərimdə bircə gözəl var,
Onsuz, gözlərim sanki, kor qalmış...

Sən də bir gözəlsən, başqası üçün,
Çünki  bu həyatın həqiqətidir.
Atalar sözü var, yəqin bilirsən;
- "Könül sevən, göyçək olar"- bu həqqdir!

# QARANQUŞUM

Yardan xəbərsizəm, xeyli var, ara.
Qaranquşum, mənə bir xəbər gətir.
Aşiqin adından söz yetir yara,
Cananımdan mənə bir xəbər gətir.

Denən ki, aşiqin yaman dərdlidir,
Ürəyi qubarlı, həm həsrətlidir,
Ayrılıq ələmi çox dəhşətlidir,
Bunları canana birtəhər yetir...

Denən ki, Ustacın yoxdu gecəsi,
Soruşma halını, yoxdu necəsi,
Ürəyində sözü vardır deyəsi,
Özünü tezliklə aşiqə yetir!

15.04.1992. Yusifcanlı.

SEVGİLİM

Bir gün səni gördüm, əqlimi aldın,
Məni özgə bir, bəlayə saldın,
Gözünü süzdürüb, qıyqacı baxdın.
Canımı odlara saldın, sevgilim!

Naz-qəmzən bir idi, min olub indi,
Çöhrən pərişandı, sözün şirindi,
Baxışın od saçır, gözün sərindi,
Canımı odlara saldın, sevgilim!

Nazlana-nazlana hərdən gələrdin,
Ustac yaman gündə, bircə, görəydin,
O, yerişlə bir də gəlib-gedəydin,
Canımı odlara saldın sevgilim!

Yusifcanlı.

## GÖRÜŞ YERİNDƏ

Nə qədər bu yolda qarşılaşmışıq,
Elə burda, döngədə rastlaşmışıq,
Gülümsəyib, bir az da qımışmışıq,
Bu həmən ağacdı, bu həmən yoldu...

İlk baxışda çiyni üstən boylandı,
Gözü güldü, yanaqları allandı,
Anası da yanındaydı, utandı,
Bu həmən doqqazdı, bu həmən yoldu...

Sonralar nə qədər görüşdük burda,
Yoxsa, sehirlidi bax bu çinar da,
İndi məni niyə qoyubdu darda,
Bu həmən çinardı, bu həmən yoldu...

Gündə neçə dəfə keçirəm burdan,

O dilsiz görüşlər, keçir xəyaldan,

Deyirəm, indicə çıxacaq ordan,

Bu həmən döngədi, bu həmən yoldu...

Yusifcanlı.

OLANDA

Nə gözəlsən, zülf pərişan olanda.
Bir gələsən, yar pərişan olanda.

Eşq oduna yandı aşiq, kül oldu,
Kaş görəydin, sən alışan olanda.

Sevməyin də əcəb qanunu varmış,
Çıx görüşə, el yatışan olanda.

Gözlərində gözlərimin izi var,
Bir dəsgahdı, üz qımışan olanda.

“Könüllərdən könüllərə körpü var”,
Ürəyimi oxuyaydın, göz baxışan olanda...

Yusifcanlı.

EY GÖZƏL

Ey gözəl, zülfü pərişan, bu canan sənin deyilmi?
Gün düşür, kölgə sürünür, bu kölgə sənin deyilmi?

Naz etdin, şux yerişinlə, rişələr atdın qəlbimə,
Əqli aldın, huşsuz etdin, bu sərsəm sənin deyilmi?

Ləpir düşdü, ləpir üstə, axır ki, düşmüşəm xəstə,
Gəl, götür qolların üstə, bu xəstə sənin deyilmi?

Yusifcanlı.

# ORDAMI ?

El yoluyla bir dəstə gözəl gəlir,
Görən, mənim sevgilim də ordamı?
Gözüm mənsiz gözəllərə zillənir,
Aradığım gülüz pəri ordamı?

Bir, ötəri görüş üçün yanmışam,
Onu çoxdan öz sevgilim sanmışam,
Xoş arzuyla asimana qalxmışam,
Baxım görüm, o ay üzlüm ordamı?

Dayanmışam, gözləyirəm bayaqdan,
Gülər üzlə gəlib keçdi yanımdan,
Xeyli baxdım, mən boylandım arxadan,
Üzüm göydə, səadətim ordamı?

Yusifcanlı.

# GECƏM

Ay-ulduzlu bir gecədə, yenə xəyala dalmışam,
Ay-ulduzn, bu gecənin xeyli seyrinə qalmışam,
Özümü gah yar yanında, gah da ki, tənha saymışam,
Görən, bunun hansı düzdü, hansı yalan, ay Allah?!

Yarı səmada zənn edib, demişəm ki, yanımdadı,
Onu, ulduza bənzədib, demişəm ki, yaxındadı,
Ya da Günəşə oxşadıb, demişəm ki, uzaqdadı,
Görən, bunun hansı düzdü, hansı yalan ay Allah?!

Uzaq ulduz nə parlayır, o yarımın lap özüdü,
Bir, Aya bax mülayimdi, o yarımın lap sözüdü,
Günəş də ki, gizlənibdi, o yarımın lap üzüdü,
Görən, bunun hansı düzdü, hansı yalan ay Allah?!

Aşiqəm bax o ulduza, necə ki, yara aşiqəm,
Aya da çoxdan vurğunam, necə ki, yarı sevirəm,
Günəş üçün darıxmışam, necə ki, yara həsrətəm,
Görən, bunun hansı düzdü, hansı yalan, ay Allah?!

Yusifcanlı.

# TƏZADLI DÜNYA

Sənsiz gün keçirmək nə qədər çətin?
Sənsiz heç, ovuna bilmirəm, inan.
Xəyal tək görüşə gəlirsən hər gün,
Dünyanın xoşbəxti, oluram bu an.

Bu dünya görəsən, niyə belədi?
- Həsrəti vüsala qoşa yaratmış.
Dünya yaranışdan elə belədi;
Adəmi Həvvaya çox həsrət qoymuş.

Yaranışdan belə yaranmış dünya,
Pis ilə yaxşısı, şər ilə xeyir.
Zülmət qaranlıqla, işıqlı dünya,
Bu dünya əzəldən elə, belədir.

Yusifcanlı.

# HƏSRƏTƏM

Səni görmək üçün qəfil, darıxdım.
Bilmədim nə edəm yaman, karıxdım.
Yerimdə lam qalıb, xeyli duruxdum,
O qara gözlərin həsrətindəyəm!

Düzü, heç bilmirəm nə olub mənə,
Xəyalın çəkilib gözüm önünə,
Gözlərim zillənib, xəyal hüsnünə,
Doğdu camalının həsrətindəyəm!

İlahi yaratmış, səni bir yoxdan,
O qara gözlərə aşiqəm çoxdan,
Bir kəlmə alaydım, o bal dodaqdan,
O şirin sözlərin həsrətindəyəm!

Yusifcanlı.

# GÖRÜŞ HƏSRƏTİ

Yolunda can qoydum, sən tək gözəlin,
Neynəyim, əllərin çatmır əlimə.
Yaman darıxmışam, sənsiz nazənin,
Səni görmək düşüb yenə könlümə.

Əllərim, əlinə uzalı qalıb,
Sözlərim, sahmana düzülü qalıb,
Gözlərim yolunda süzülü qalıb,
Yeni bir istək dolub qəlbimə.

İstərəm, hüsnünü bircə an görüm,
Üzündən-gözündən halını duyum,
Göz-gözə səninlə hal-əhval edim,
Lal-dinməz bir görüş gəlib eynimə...

Yusifcanlı.

# DİLBƏRİM

Ay gözəl, amandır, getmə, dayan bir.
Sinəmdə çırpınan ürək sənindir.
Məhəbbət quyusu yaman dərindir.
Dibinə çatmayır, neynim əllərim,
Gülərüz, şirinsös, qəşəng dilbərim!

Gəl mənim dərdimdən hali ol, ay qız.
Aşiqi çoxdandır qoymusan, yalqız.
İndi, elə vaxdır, hökm edir payız.
Bahara uzalı qalıb, əllərim,
Gülərüz, şirinsöz, qəşəng dilbərim!

Nə vaxt gələcəksən, söylə görüşə,
Qəlbimi yandırdın, sönməz atəşə,
İnan, qurban dedim, bu cür gəlişə,
Yollara dikili qalıb, gözlərim,
Gülərüz, şirinsöz, qəşəng dilbərim!

Yusifcanlı.

## BƏRDƏLİ QIZI

Qəmzəli-qəmzəli bir də baxaydın,
Könlümü yenə də oda yaxaydın,
Solmaz çiçək kimi yenə açaydın,
Xəfif təbəssümlə, Bərdəli qızı.

Nədir bu işvə, hardandı bu naz?
Dağ qızı Lalə də heç, belə olmaz,
Qəmzəli Bənövşə yanında açmaz!
Hüsnün gül-çiçəkdir, Bərdəli qızı!

Görəsən, haçansa görəcəm sizi?
Yoxsa, yaşadacam xatirənizi?
O süzgün baxışlı hədiyənizi,
Ay şirin dilli, Bərdəli qızı.

Yazdım, bu şeri saf bir, diləklə,
Qalsın, bu görüşdən şirin xatirə,
Haçansa, qayıtsam mən bu illərə,
Yadigarın olsun, Bərdəli qızı.

Başqa bir, məqsədim-məramım yoxdu,
Sən tək Azəri gözəli çoxdu,
Zaurun gözləri inan ki, toxdu,
Özünün yarı var, Bərdəli qızı!

Ağcabədi.

## OLDUN

Cana candan can demişəm,
Səni oda yan demişəm,
Məni hər an an demişəm,
Neyçün belə anmaz oldun?
Getdin, yenə gəlməz oldun!

Mən  həmişə səninləyəm,
Kölgən kimi sürünərəm,
Çünki mən də sən deyiləm,
Sən bunları bilməz oldun,
Getdin, yenə gəlməz  oldun!

Səni eşqimə bülədim,
Canına öz canım dedim.
Nisgilin, həsrətin yedim,
Neyçün bunu görməz oldun?
Getdin, yenə gəlməz oldun!

Bənövşə tək açmış idin,

Gül ətrini saçmış idin,

Eşq bağından qaçmış idin,

Çox gözlədim, dönməz oldun,

Getdin, yenə gəlməz oldun!

Bu inaddan gəl dön, ay qız!

Aşiqi çox qoyma, yalqız.

Gəl, Zauru yorma, ay qız!

Neyçün sən vəfasız oldun?

Getdin, yenə gəlməz oldun!

Yusifcanlı.

## NƏDƏNDİ

Bəstə boylu ay utancaq gözəlim,
Yanağın allanır söylə, nədəndi?
Gah tutulur, gah açılır gül siman,
Kipriyin qırpılır söylə, nədəndi?

Yerişin bir aləm, baxışın başqa,
Qıvrım tel bir aləm, hüsnün bir başqa,
Gözəlim, gəl söylə bir gözdən başqa ,
Qaş, ya tel çaşmayır söylə, nədəndi?

Ustacın sənəmi, gözəl nazənin,
Gah şux görünən, gah da ki, həzin,
Bütün bu dünyanı birbəbir gəzin,
Sizi məncə sevən yoxdu, nədəndi?!

Yusifcanlı.

# *Maraq üçün*

Zaur Ustac 8 yanvar, 1975-ci ildə Bakı şəhərində anadan olmuş, ilk təhsilini Ağdam rayonunun Yusifcanlı kənd orta məktəbində almış, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində davam etdirmişdir. Birinci Qarabağ müharibəsinin iştirakçısı və halhazırda ehtiyatda olan zabitdir. Zaur Ustac 1988-ci ildən etibarən dövri mətbuatda çıxış edir. Zaur Ustac «Yazarlar» jurnalının təsisçisi və baş redaktorudur. Zaur Ustac «GÜNAYDIN“ («AĞÇİÇƏYİM”), “İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN”, “GÜLZAR”, “ŞEHÇİÇƏYİM”, “MƏHDUD HƏYDTIN MƏCHUL DÜŞÜNCƏLƏRİ”, “MUM KİMİ YUMŞALANDA”, “BAYATILAR”, “BALÇİÇƏYİM”, “GÜLÜNÜN ŞEİRLƏRİ” “SEVİN Kİ, SEVİLƏSİZ…”, “QƏLBİMİN AÇIQCASI”, “USTADNAMƏ”, “NİŞANGAH”, "ÇƏHRAYI KİTAB", "OTUZ İLDİR, ƏLDƏ QƏLƏM" kimi şeirlər kitablarının, "USUBCAN ƏFSANƏSİ" adlı məqalələr toplusunun və Azərbaycan Respublikasının Milli Qəhrəmanı Gizir Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunmuş “ ORİYENTİR ULDUZU” kitabının müəllifidir.

***Ustaca görə, yazarlar, ancaq yazarlar... Yəni şübhəsiz ki, hikmət və söz Uca Tanrıya məxsusdur.***

***Biz sadəcə diktə olunanları qələmə alan, qələm tutan qullarıq-qələmin sahibi də odur...***

***- Ustaclıyam, əlim ərşi-əlada,***

***Bu nə sitəm, millətim nə bəlada???!!!***

Zaur USTAC

(Mustafayev Zaur Mustafa oğlu)

“GÜLZAR”

Elektron nəşr:

Texniki redaktor: Tunc AY

Rəssam və tərtibatçı: Gülü

Kitab “Yazarlar”-ın kompüter mərkəzində yığılıb.

Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*

*Elektron Kitab Zaur Ustac yaradıcılığının “30” illik yubley tədbirləri çərçivəsində nəşr olunan 6-cı kitabdır.*

*(Y-30-EK-06-ZU)*

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Çapa imzalandı: 16. 04.2018.

Əlaqə: zauryazar@mail.ru

Pulsuz.

F/b: **Zaur Ustac**

Qeyd:



Üzqabığının müəllifi: Xaqani Əhmədovdur.